# Milli təhsilimizin memarı

*Dövlətçilik tariximizin lideri ulu öndər Heydər Əliyev xalqını, Vətənini fədakarlıqla, böyük məhəbbətlə sevirdi. Azərbaycanlı olmağı ilə həmişə fəxr edən ulu öndər bütün mənalı ömrünü Azərbaycanın müstəqilliyinin qorunmasına, ölkəmizin inkişafına və tərəqqisinə həsr edib. Xalqımızın görkəmli oğlu Heydər Əliyevin hakimiyyətə qayıtdığı 1993-cü il iyunun 15-i Azərbaycan tarixinin ən parlaq səhifəsi kimi yaddaşlara əbədi həkk olunub. Azərbaycan torpaqlarının işğala məruz qaldığı, ölkənin parçalanmaq təhlükəsi ilə üzləşdiyi, vətəndaş qarşıdurmasının yarandığı bir vaxtda ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdaraq qarşıdurmaya, siyasi hərc-mərcliyə son qoydu, onun gərgin zəhməti və dühası hesabına respublikada siyasi sabitliyə nail olundu. Həmin tarixdən sonra ölkənin ictimai-siyasi, sosial-iqtisadi, hərbi və mədəni həyatında əsaslı dönüş başlandı, əmin-amanlıq bərqərar oldu.*

Dahi insanın ən dəyərli kəlamlarından biri belədir ki, müstəqilliyi qazanmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq ikiqat çətin və məsuliyyətlidir. Dövlət müstəqilliyimizin yenidən bərpa olunmasının tarixinə qısa bir nəzər salaq. 1990-cı ildə qanlı Yanvar hadisələrindən sonra xalqın öz qüdrətli rəhbəri ilə birləşəcəyindən qorxan imperiya Heydər Əliyevə qarşı repressiya planları hazırladı və həyata keçirməyə çalışdı. Respublika rəhbərləri də hər vəchlə onun Azərbaycana qayıtmasına mane olurdular. Tarixin bu məsuliyyətli və çətin, lakin həlledici dövründə xalqına kömək etməyi vacib bilən Heydər Əliyev 1990-cı il iyulun 20-də Bakıya gəldi.

Xalq bu gəlişi böyük ümid və ruh yüksəkliyi ilə gözləyirdi. Lakin iqtidar, hakimiyyət bölgüsü gözləyən müxalif qüvvələr Heydər Əliyevin Bakıda qalmasına hər cür maneə törətdilər və o, doğma diyarı olan Naxçıvana getməli oldu. Heydər Əliyev iyulun 22-də Naxçıvanın "Azadlıq" meydanında 80 mindən çox adamın iştirakı ilə keçirilən izdihamlı mitinqdə çıxış etdi. Xalqın nümayəndələri ilə görüşlər keçirərək xalqı azadlıq, müstəqillik uğrunda mübariz olmağa çağırdı.

Ümumiyyətlə, 1993-cü il çox keşməkeşli, ziddiyyətli, təhlükəli il kimi yaddaşlarda qaldı. Həmin il iyun ayının 4-də Gəncə şəhərində silahlı üsyan baş verdi. İqtidarda olan Azərbaycan Xalq Cəbhəsinin sabitlik yaratmağa, üsyançıların qarşısını almağa sözün əsl mənasında, bacarığı çatmadı. Xalq nicat yolunu Heydər Əliyevdə gördü və ulu öndər doğma xalqını qardaş qırğınından xilas etmək üçün bütün təhlükələrə baxmayaraq, Gəncə şəhərinə getdi. 1993-cü il oktyabrın 3-də xalqımız Heydər Əliyevi səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçdi. Bu seçkilər bütün Azərbaycan xalqının Heydər Əliyevə böyük ümidlər bəslədiyini, inandığını bir daha nümayiş etdirdi.

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil məsələləri xüsusi yer tutur. Ulu öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Dahi rəhbər deyirdi: "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır". Ulu öndərimiz həm təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləmiş, həm də Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalmış, illər boyu bu sahədə böyük inkişafa rəvac verən sistemli tədbirlər həyata keçirmişdir.

Heydər Əliyev müstəqil Azərbaycanın milli təhsil quruculuğu sahəsindəki islahatların həqiqi memarı idi. Bu, böyük şəxsiyyətin yenidən hakimiyyətə xilaskar missiyalı qayıdışı Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatının bütün sahələrində olduğu kimi, təhsil sahəsində də tənəzzülün qarşısını almağa imkan verdi. Milli təhsilimiz sürətli inkişaf yoluna qədəm qoydu. Müstəqillik illərində milli təhsilimizi Qərb standartları səviyyəsinə yüksəltmək, milli-mənəvi dəyərlərə həssas münasibət ümummilli liderimizin həyata keçirdiyi siyasətin prioritet istiqamətini təşkil etdi.

Təhsil sahəsində əsası ümummilli lider tərəfindən qoyulmuş islahatlar bu gün Prezident İlham Əliyev tərəfindən yeni mərhələdə və yeni keyfiyyətdə uğurla davam etdirilir və bu sahədə atılan addımlar ölkəmizdə savadlı, istedadlı gənc nəslin yetişməsinə, təhsil sahəsində nailiyyətlərin əldə edilməsinə və nəhayət, Azərbaycan dövlətinin sürətli inkişafında əsaslı baza rolunu oynayır. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin mühüm strateji istiqamətlərindən biri və bəlkə də ən başlıcasıdır.

Bu gün ulu öndərin layiqli davamçısı, Prezident, Qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımız işğalçılardan azad edilib, Ermənistanın 30 illik hərbi təcavüzünə son qoyulub. Ölkədə böyük inkişafa nail olunub. Azərbaycan xalqı xoşbəxt gələcəyə doğru qətiyyətlə addımlayır, siyasi, hərbi və iqtisadi cəhətdən Cənubi Qafqazın ən qüdrətli ölkəsinə çevrilib. Kollektivimiz azad Ağdama qayıdacağı günü sevinclə və qürurla gözləyir.

**Rafail MUSAYEV,**
**Ağdam Musiqi Kollecinin direktoru,**
**sənətşünaslıq namizədi, dosent.**

Respublika .- 2022.- 14 iyun.- S.4.